# MÜBARİZ KEŞİKDƏ

5 iyul 2018-ci il
Cümə axşamı
№ 26 (3390)
1933-cü ildən çıxır
Qiyməti 40 qəpik
AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

## AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ƏMƏKDAŞLARININ TƏLTİF EDİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan polisinin yaranmasının 100 illik yubileyi münasibəti ilə və Azərbaycan Respublikasında ictimai təhlükəsizliyin və asayişin təmin edilməsində, cinayətkarlığa qarşı mübarizədə xüsusi xidmətlərinə, qarşılarında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin aşağıdakı əməkdaşları təltif edilsinlər:

**1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Usubov Ramil İdris oğlu – general-polkovnik
Eyvazov Vilayət Süleyman oğlu – polis general-leytenantı

**2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Əliyev İsmət Rəşid oğlu – polis general-leytenantı

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Daşdəmirov Arzu Arif oğlu – polis general-mayoru
Əliyev Nazim Tələt oğlu – polis general-mayoru
Əliyev Yaşar Ədilxan oğlu – polis general-mayoru
Zeynalov Ramiz Məhəmmədəli oğlu – polis general-mayoru

**"Vətən uğrunda" medalı ilə**

Abbasov Rafiq Qoşunəli oğlu – polis general-mayoru
Abbasov Ədalət Yaqub oğlu – polis polkovniki
Aslanov Dilqəm Mikayıl oğlu – polis general-mayoru
Aslanov Həzi Arif oğlu – polis general-mayoru
Ağayev Baxşeyiş Ağakişi oğlu – polis polkovniki
Bayramov Cahangir Tofiq oğlu – polis polkovnik-leytenantı
Cabbarov Bəhruz Musa oğlu – polis polkovniki
Camalov Namiq Əliseyn oğlu – polis polkovniki
Əmiraslanov Habil Həbib oğlu – polis polkovniki
Əhmədov Mahir Bayram oğlu – polis polkovniki
Həsənov Elxan İslam oğlu – polis general-mayoru
Həsənov Elçin Hidayət oğlu – polis general-mayoru
Hüseynov Yadigar Hüsən oğlu – polis polkovniki
İbrahimov Məhəmməd Abdulkərim oğlu – polis polkovniki
Kazımov Elşən Lətif oğlu – polis general-mayoru
Kərimov Oqtay Əsgər oğlu – polis general-mayoru
Quliyev Mübariz İlyas oğlu – polis polkovniki
Qurskaya Levan Yuryeviç – polis polkovniki
Meftaxetdinova Zemfira Əliyevna – polis polkovniki
Məmmədov Eldəniz Kazım oğlu – polis polkovniki
Mirbabayev Mirnemət Rais oğlu – polis polkovnik-leytenantı
Musayev Musa Oqtay oğlu – polis polkovniki
Novruzov Səbuhi Məhərrəm oğlu – polis general-mayoru
Seyidov Mirqafar Mircəfər oğlu – polis general-mayoru
Səfərov Sərdar Süleyman oğlu – polis polkovniki
Süleymanov Elşad Süleyman oğlu – polis polkovniki
Şirinov Həsən Kamil oğlu – polis general-mayoru
Usubov Emil Ramil oğlu – polis general-mayoru
Yusifov Mahmud Şahmurad oğlu – tibb xidməti polkovniki
Zahidov Ehsan Əflan oğlu – polis polkovniki

**"İgidliyə görə" medalı ilə**

Əzimov Seyfulla Səttar oğlu – polis general-mayoru
Əsədov Adil Əsəd oğlu – polis polkovniki
Həsənov Ənvər Muxtar oğlu – polis polkovnik-leytenantı
Hümbətov İslam Möhsüm oğlu – polis polkovniki
İlyasov Eldar Müseyib oğlu – polis polkovniki
İsmayılov Namiq Qəzənfər oğlu – polis polkovniki
Mehdiyev Elnur Zakir oğlu – polis polkovniki
Məmmədov İlqar Paşa oğlu – polis polkovniki
Mirzəyev Sahib Cabbar oğlu – polis general-mayoru
Şəkinski Emin Əkrəm oğlu – polis general-mayoru
Şirinov Nüsrət Kamran oğlu – polis general-mayoru.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 29 iyun 2018-ci il.***

## AZƏRBAYCAN POLİSİNİN YARANMASININ 100 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN RESPUBLİKASI POLİS ORQANLARININ ŞƏXSİ HEYƏTİNƏ



Hörmətli polis əməkdaşları və veteranları!

Sizi Azərbaycan Polisinin yaranmasının 100 illik yubileyi münasibətilə təbrik edirəm. Bu tarix yalnız ölkəmizin daxili işlər orqanları üçün deyil, bütünlükdə müstəqil Azərbaycan dövləti üçün əlamətdar hadisədir.

1918-ci il iyulun 2-də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə ilk polis orqanları yaradılmış və bununla da Azərbaycan Polisinin əsası qoyulmuşdur.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 1969-cu ildə respublikaya rəhbər seçildikdən sonra Daxili İşlər Nazirliyi əməkdaşlarının vətənpərvərlik ruhunda təlim-tərbiyəsinə və peşəkarlığının artırılmasına xüsusi önəm vermişdir.

1991-ci ildə yenidən dövlət müstəqilliyini bərpa etmiş respublikamızda baş verən dağıdıcı proseslər, yaranmış hakimiyyət böhranı və idarəolunmaz vəziyyət dövlətçiliyin əsas sütunlarından olan polis orqanlarına da mənfi təsir göstərmişdi. Ölkədə cinayətkarlıq kəskin şəkildə artmış, kriminogen durum nəzarətdən çıxmışdı. Yalnız 1993-cü il iyunun 15-də xalqın təkidi ilə ümummilli lider Heydər Əliyevin Azərbaycana siyasi rəhbərliyə qayıtması dövlətçiliyimizi uçurumdan xilas etdi. Ulu öndərin rəhbərliyi ilə ölkədə ictimai-siyasi sabitlik təmin edildi, daxili işlər orqanlarının fəaliyyətində əsaslı dönüş yaradıldı və onun sıraları dövlətinə və xalqına sədaqətli şəxsi heyətlə komplektləşdirildi.

Bu gün Heydər Əliyev siyasəti uğurla davam etdirilir. Ulu öndərin qoyduğu təməllər üzərində güclü dövlət qurulmuşdur. Ölkəmizdə siyasi sabitlik, əmin-amanlıq hökm sürür, qanunun aliliyi təmin edilir, insan hüquqları ədalətli şəkildə qorunur.

Hazırda Azərbaycan Polisi güclü nizam-intizama, yüksək peşəkarlığa malik, müasir maddi-texniki imkanlarla təchiz edilmiş, dövlətçiliyimizin qorunması işində önəmli xidmətləri olan mühüm dövlət təsisatıdır.

Dövlət tərəfindən daxili işlər orqanları əməkdaşlarının sosial müdafiəsinin gücləndirilməsi istiqamətində daim kompleks tədbirlər həyata keçirilir və bu sahədə dövlət qayğısı gələcəkdə də davam etdiriləcək. Öz növbəsində, Azərbaycan Polisi fəaliyyətini müasir tələblərə uyğun təkmilləşdirməli, cinayətkarlığa qarşı mübarizəni daha böyük əzmlə və qətiyyətlə aparmalıdır.

Əminəm ki, daxili işlər orqanlarının şəxsi heyəti bundan sonra da vəzifələrini şərəflə yerinə yetirəcək.

Sizi bir daha əlamətdar yubiley münasibətilə təbrik edir, dövlətimiz və cəmiyyətimiz üçün önəmli fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 29 iyun 2018-ci il.***

## AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ZABİTLƏRİNƏ ALİ HƏRBİ VƏ ALİ XÜSUSİ RÜTBƏLƏRİN VERİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin aşağıdakı zabitlərinə ali hərbi və ali xüsusi rütbələr verilsin:

**general-leytenant ali hərbi rütbəsi**
general-mayor Fazil Nəriman oğlu Ələkbərova
**polis general-mayoru ali xüsusi rütbəsi**
polkovnik Heydər Teyyub oğlu Heydərova.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 29 iyun 2018-ci il.***

## K.Q.QAFAROVA "ƏMƏKDAR HƏKİM" FƏXRİ ADININ VERİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyində səhiyyə sahəsinin inkişafında xidmətlərinə görə Kamal Qafar oğlu Qafarova "Əməkdar həkim" fəxri adı verilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 29 iyun 2018-ci il.***

## DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**Bu ilki peşə bayramı günü – 2 iyul Azərbaycan Polisi həm də yaranmasının 100 illik yubileyini qeyd edir. Bu münasibətlə keçirilən təntənəli tədbirdən öncə respublikanın daxili işlər naziri, general-polkovnik Ramil Usubovun rəhbərliyi ilə DİN-in təmsilçiləri Fəxri xiyabana gələrək ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib, abidə kompleksi önünə tər çiçək dəstələri düzüblər. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi də ehtiramla yad olunub.**

**Daha sonra respublikanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş mərd mübarizlərin uyuduğu Şəhidlər Xiyabanı ziyarət olunub.**

**İyulun 2-də Daxili İşlər Nazirliyinin Polis Akademiyasında Azərbaycan Polisinin 100 illik yubileyinə həsr olunmuş təntənəli mərasim keçirilib.**

Əvvəlcə mərasim iştirakçıları xalqımızın ümummilli lideri Heydər Əliyevin, suverenliyimiz və ərazi bütövlüyümüz uğrunda canlarını fəda etmiş, xidməti borcu yerinə yetirərkən həlak olmuş polis əməkdaşlarının xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

Tədbirdə Azərbaycan Respublikası Prezidentinin Hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı zati-aliləri cənab İlham Əliyevin əlamətdar yubiley münasibətilə polis orqanlarının şəxsi heyətinə təbrikini çatdırıb.

Sonra nazir, general-polkovnik Ramil Usubov ötən 100 ildə Azərbaycan Polisinin keçdiyi şərəfli yol, xüsusən ulu öndər Heydər Əliyevin respublikamıza hər iki rəhbərliyi dövründə daxili işlər orqanlarının fəaliyyətinin təşkili, peşəkar kadr özəyinin yaradılması, həmçinin möhtərəm Prezidentimizin başçılığı ilə hüquq-mühafizə, o cümlədən daxili işlər orqanlarında həyata keçirilən islahatlar, struktur dəyişiklikləri, maddi-texniki bazanın möhkəmləndirilməsi, iş şəraitinin yaxşılaşdırılması, şəxsi heyətə ali diqqət və qayğısı barədə geniş məruzə ilə çıxış edib.

Nazir asayiş keşikçilərinin öz şanlı yubileylərini böyük qürur hissi və xidmətdə qazandığı uğurlarla qeyd etdiklərini, bu münasibətlə ünvanladığı təbrikdə möhtərəm Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin Azərbaycan Polisinin 100 illik əzmkar missiyasına dolğun, keçdiyi şərəfli yola yüksək qiymət verməsinin bütün şəxsi heyətin hədsiz sevincinə, ruh yüksəkliyinə səbəb olduğunu, bu günlərdə ölkə başçımızın imzaladığı sərəncamlarla 49 əməkdaşımızın dövlət mükafatlarına, 2 rəhbər vəzifəli şəxsin isə ali xüsusi rütbəyə layiq görüldüyünü vurğulayıb.

Polisin keçdiyi yolun dövlətçiliyimizin tarixi ilə sıx bağlılığını nəzərə alan, tarixi ədalətin bərpasını zəruri sayan və varislik prinsipini rəhbər tutan xalqımızın ümummilli lideri Heydər Əliyevin 20 il öncə, 1998-ci ildə imzaladığı Fərmanla iyulun 2-nin "Azərbaycan Polisi Günü" elan edildiyini deyən daxili işlər naziri bu müdrik qərarın polisin ən yaxşı ənənələrinə, gecəli-gündüzlü gərgin əməyinə, torpaqlarımızın müdafiəsində və xidməti vəzifə borcunu yerinə yetirərkən qəhrəmancasına həlak olanların əziz xatirəsinə ehtiramın əyani təcəssümü olduğunu diqqətə çatdırıb.

*Ardı 2-ci səhifədə.*

# DİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATLARI

Əvvəli 1-ci səhifədə.

Cümhuriyyətin süqutundan sonra Azərbaycanın Sovet İttifaqının tərkibində olduğu illər ərzində daxili işlər orqanlarının inkişaf etdiyi, ictimai asayişin qorunmasında yüksək nəticələr və zəngin təcrübə qazandığı, Azərbaycan milisinin İkinci Dünya müharibəsində böyük qəhrəmanlıqlar göstərdiyi, ulu öndərin rəhbərliyi altında respublikamızın iqtisadi, sosial və digər sahələrdə böyük uğurlar qazandığı 1970-1980-ci illərin Daxili İşlər Nazirliyinin tarixində mühüm mərhələ olduğu qeyd edilib.

Bildirilib ki, məhz həmin dövrdə ümummilli lider böyük uzaqgörənliklə daxili işlər orqanlarının təşkilati və ideoloji cəhətdən möhkəmlənməsi, sıralarının saflaşdırılması, peşəkar kadrların irəli çəkilməsi ilə bağlı ciddi qərarlar qəbul edib. Şəxsi heyətin milli dövlətçilik ideyası ruhunda formalaşmasının nəticəsi idi ki, 1988-ci ildən başlayaraq, Ermənistanın hərbi təcavüzünə qarşı Vətənin müdafiəsinə ilk olaraq qalxan və uzun müddət rəşadətlə döyüşən yeganə silahlı



qüvvə məhz polis, sonralar isə Daxili Qoşun hissələri idi. Həmin döyüşlərdə DİN-in 1695 əməkdaşı və hərbi qulluqçusu şəhid olub, 1710-u yaralanıb. Müstəqillik illərində xidməti vəzifələri yerinə yetirərkən isə 99 əməkdaş həyatını itirib, 2640 nəfər xəsarət alıb. Göstərdikləri fədakarlığa görə daxili işlər orqanlarının 67 əməkdaşına Azərbaycan Respublikasının Milli Qəhrəmanı adı verilib, 1143 nəfər müxtəlif orden və medallarla təltif olunub.

Daha sonra cənab Ramil Usubov müstəqilliyin ilk illərində respublikamızda yaşanan ictimai-siyasi böhran, hərc-mərclik, özbaşınalıq, insan hüquqlarının kütləvi şəkildə pozulması, torpaqlarımızın işğalı və separatizmin Azərbaycanın bir dövlət kimi mövcudluğunu təhlükə altına alması, onu dağılmaq həddinə gətirməsi, çoxsaylı qanunsuz silahlı dəstələrin əhalidə vahimə və qorxu yaratması, cinayətlərin sayının kəskin artması, kriminogen durumun nəzarətdən çıxması, belə ağır və mürəkkəb vəziyyətdə xalqın təkidli tələbi ilə 1993-cü ilin iyun ayında yenidən siyasi hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyevin qurtuluş missiyasını həyata keçirərək qısa müddətdə respublikada möhkəm və dönməz sabitlik yaratmağa nail olması, dövlət çevrilişi və vətəndaş müharibəsinin qarşısının alınması, anarxiyaya son qoyulması, qanunsuz silahlı dəstələrin tərksilah edilməsi, kriminogen durumun nəzarətə götürülməsi barədə ətraflı danışıb.

Ən yeni tariximizə nəzər salan nazir 2003-cü ilin oktyabrında cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra ölkəmizin öz inkişafının yeni mərhələsinə qədəm qoyduğunu, lakin həmin illərin də asan olmadığını, yenidən dövlətimizi xaos və anarxiyaya sürükləməyə cəhdlərin göstərildiyini, bu antimilli əməllərin qarşısının Ali Baş Komandanımızın qətiyyəti, möhkəm iradəsi, hüquq-mühafizə




orqanlarının yaranmış vəziyyətə operativ müdaxiləsinin təşkili sayəsində alındığını, məhz ictimai asayişin etibarlı qorunmasının nəticəsi olaraq onun rəhbərliyi ilə xalqımız və dövlətimiz üçün çox mühüm olan qlobal layihələrin reallaşdığını məmnunluqla xatırladıb.

Cinayətkarlığa qarşı mübarizədə digər hüquq-mühafizə və xüsusi xidmət orqanları ilə birgə qazanılan uğurların mötəbər beynəlxalq təşkilatlar tərəfindən də dəyərləndirildiyi nəzərə çatdırılıb. Məlumat verilib ki, Dünya İqtisadi Forumunun hesabatına əsasən, "Polis xidmətlərinin etibarlılığı" indikatoru üzrə Azərbaycan Respublikası 2017-ci ildə 21 pillə irəliləyərək 137 ölkə arasında 54-cü, "Təhlükəsizlik" indikatoru üzrə 40-cı, "Mütəşəkkil cinayətkarlıq" indikatoru üzrə 43-cü mövqedə qərarlaşıb.



Bildirilib ki, müasir dövrün çağırış və təhdidləri nəzərə alınmaqla şəxsi heyətin peşəkarlıq səviyyəsinin artırılmasına da böyük önəm verilir. Belə ki, son 15 ildə beynəlxalq qurumların təşkil etdiyi forum, müşavirə və treninqlərdə 6 mindən çox əməkdaş iştirak edib, təcrübə mübadiləsi aparılıb. Hər il onlarla gənc müxtəlif ölkələrin polis akademiyalarına, hüquq universitetlərinə təhsil almağa göndərilir. Müstəqilliyin ilk illərində hüquqşünas ixtisası tələb olunan zabit heyəti vəzifələrinin yalnız 16 faizini müvafiq təhsilli əməkdaşlar təşkil edirdisə, hazırda bu göstərici 100 faizə çatıb, kiçik rəis heyəti vəzifələrində xidmət edən əməkdaşların isə təxminən 20 faizi ali təhsillidir.

Nazir R.Usubov xidməti vəzifələrin icrasında yaxından köməkliklərinə görə vətəndaşlara, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının, Nazirlər Kabinetinin, Milli Məclisin, hüquq-mühafizə, xüsusi xidmət və digər dövlət orqanlarının, kütləvi informasiya vasitələrinin, ictimai təşkilatların rəhbərlərinə və nümayəndələrinə təşəkkürünü bildirib, həmçinin gənc əməkdaşların formalaşmasında və təcrübə əldə etməsində böyük işlər görən veteranlara təşəkkür edərək ən xoş arzularını çatdırıb.

Daxili işlər orqanlarının fəaliyyətini hər zaman yüksək dəyərləndirdiyinə görə bütün şəxsi heyət adından ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə dərin minnətdarlığını bildirən nazir Ramil Usubov əmin edib ki, Azərbaycan Polisi inkişafın və rifahın rəhni olan sabitliyin qorunub saxlanılması, qanunçuluğun, fundamental insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi üçün bundan sonra da qüvvə və bacarığını əsirgəməyəcək, andına sadiq qalaraq Azərbaycan Respublikasına ləyaqətlə xidmət edəcək, möhtərəm Prezidentin inam və etimadını hər zaman layiqincə doğrultmağa çalışacaqdır.

Təntənəli mərasim nazirliyin ayrı-ayrı struktur qurumlarının şəxsi heyətinin, həmçinin xidməti nəqliyyat vasitələrinin və süvarilərin tribuna önündən keçidi ilə başa çatıb.

*2 iyul 2018-ci il.*

---

***Daxili İşlər Nazirliyində keçirilən bu yubiley tədbiri təkcə onun səbəbkarı üçün deyil, bütün iştirakçıların xatirində yaddaqalan bir hadisəyə çevrildi. Ömrünün önəmli bir hissəsini daxili işlər orqanlarında əməliyyat işinə həsr edən, bu müddətin də böyük hissəsini rəhbər vəzifələrdə çalışan respublika daxili işlər nazirinin birinci müavini, polis general-leytenantı Vilayət Eyvazovun anadan olmasının 50 illiyi qeyd olundu.***



***Bununla əlaqədar iyunun 28-də keçirilmiş mərasimdə nazir, general-polkovnik Ramil Usubov yubilyarın örnək olası işgüzarlığından və idarəetmə qabiliyyətindən, rəhbərlik tərəfindən verilən istənilən tapşırığı ən yüksək səviyyədə yerinə yetirməsindən, özünə və tabelikdəki əməkdaşlara qarşı tələbkarlığından, həmçinin təvazökarlığından danışaraq, belə üstün mənəvi keyfiyyətləri sayəsində onun əməliyyat müvəkkilindən daxili işlər nazirinin birinci müavini vəzifəsinədək yüksəldiyini nəzərə çatdırdı.***

***Cənab nazir polis general-leytenantı Vilayət Eyvazovu ulu öndərin ideallarına, dövlət başçımızın yeritdiyi siyasətə, dövlətçiliyə sadiq, hər zaman sözü ilə əməli bir olan zabit kimi səciyyələndirdi, qanunvericilik ilə daxili işlər orqanlarına həvalə olunmuş vəzifələrin yerinə yetirilməsində, cinayətkarlığa qarşı mübarizənin təşkilində, eyni zamanda, nazirin birinci müavini kimi kuratoru olduğu xidmət sahələrinin fəaliyyətinin çevik və məqsədyönlü idarə olunmasında, düzgün istiqamətləndirilməsində yüksək peşəkarlıq və təşkilatçılıq bacarığı nümayiş etdirdiyini, dövlətin konstitusion quruluşunun müdafiəsində, əmin-amanlığın təmin edilməsində diqqətəlayiq rolunu xüsusi qeyd etdi.***

***Nazir Ramil Usubov Vilayət Eyvazovun səmərəli və məqsədyönlü fəaliyyətinin ölkə rəhbərliyi tərəfindən həmişə yüksək qiymətləndirildiyini, möhtərəm Prezidentimizin müvafiq fərman və sərəncamları ilə onun "Azərbaycan Bayrağı", 1-ci və 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordenləri ilə təltif olunduğunu, polis general-mayoru və polis general-leytenantı kimi ali xüsusi rütbələrə layiq görüldüyünü bildirdi və ona gələcək məsul xidməti fəaliyyətində yeni-yeni uğurlar arzuladı.***

---

**İyunun 30-da - Azərbaycan Polisinin 100 illik yubileyi ərəfəsində Daxili İşlər Nazirliyinin Polis Akademiyasında 2017-2018-ci tədris ilinin buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilib.**

**Respublikanın daxili işlər naziri, general-polkovnik Ramil Usubov tədbirdə iştirak edib.**

Polis Akademiyasının rəisi, polis general-mayoru Nazim Əliyev şəxsi heyətin təntənəli mərasimə hazır olması barədə general-polkovnik Ramil Usubova raport verib. Nazir Polis Akademiyasının müəllim və müdavim heyətini əlamətdar hadisə münasibətilə təbrik edib.

Tədbir iştirakçıları xalqımızın ümummilli lideri Heydər Əliyevin, suverenliyimiz və ərazi bütövlüyümüz uğrunda canlarını fəda etmiş, xidməti borcu yerinə yetirərkən həlak olmuş polis əməkdaşlarının xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

Polis general-mayoru Nazim Əliyev bu ali polis təhsil ocağında təlim-tədris prosesinin təkmilləşdirilməsi və maddi-texniki bazanın daha da möhkəmləndirilməsi istiqamətində görülən işlər barədə məruzə ilə çıxış edib. Qeyd olunub ki, əsas təyinatı daxili işlər orqanları üçün ali hüquq təhsilli kadrların hazırlanması olan Polis Akademiyasının rəhbərliyi və pedaqoji kollektivi tədris prosesinin təkmilləşdirilməsi, peşəkarlıq xüsusiyyətlərinin formalaşdırılması, onların intellektual, mədəni və mənəvi inkişafı ilə bağlı vəzifələri 2017-2018-ci tədris ilində də layiqincə yerinə yetirməyə çalışıb. Ölkə Prezidentinin ali diqqət və qayğısı, DİN rəhbərliyinin, şəxsən daxili işlər nazirinin tələb, tövsiyə və tapşırıqlarının nəticəsi olaraq Akademiyanın maddi-texniki bazasının gücləndirilməsi istiqamətində işlər davam etdirilib.

Daxili işlər naziri təntənəli mərasimdə çıxış edərək Polis Akademiyasının öz təyinatına uyğun olaraq daxili işlər orqanlarının ixtisaslı kadrlarla təminatında mühüm rol oynadığını, 1921-ci ildə sıravi milis nəfərləri və komandir heyəti hazırlayan bu təhsil müəssisəsinin böyük inkişaf yolu keçərək Akademiya səviyyəsinədək yüksəldiyini, onun məzunlarının şəxsi heyətin əsas özəyini təşkil etməklə, bir çoxlarının müxtəlif rəhbər vəzifələrə irəli çəkildiyini bildirib.

Daxili işlər orqanlarında xidmətin böyük vətəndaşlıq məsuliyyəti, cəsarət, şəxsi mətanət, bilik, elm, təhsil və təcrübə tələb etdiyini vurğulayan, polisin professional səviyyəsini daim artırmasını bir vəzifə kimi qarşıya qoyan ümummilli liderimiz Heydər Əliyevin 2002-ci ildə Azərbaycan Polisinin yaranmasının 84-cü ildönümünə həsr olunmuş təntənəli mərasimdə Akademiyanın yüksək standartlar səviyyəsində yenidən qurulmasına dair verdiyi konkret tapşırıqların bu ali təhsil müəssisəsinin inkişafında əhəmiyyətli rol oynadığı xüsusilə qeyd edilib.

General-polkovnik Ramil Usubov 2003-cü ildən etibarən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan quruculuq işlərinin və islahatların Daxili İşlər Nazirliyinin digər orqan və hissələri ilə bərabər, Polis Akademiyasını da əhatə etdiyini, möhtərəm dövlət başçımızın burada görülən işlərlə iki dəfə şəxsən tanış olduğunu, öz dəyərli tövsiyələrini verdiyini, məhz onun böyük diqqət və qayğısı sayəsində Akademiyanın maddi-texniki bazasının gücləndiyini, təhsilin keyfiyyətinin yüksəldiyini vurğulayıb.

Məzunların həyatında yeni bir dövrün başlandığını nəzərə çatdıran daxili işlər naziri onları, valideynlərini və yaxınlarını Akademiyanı müvəffəqiyyətlə bitirmələri münasibətilə bir daha təbrik edib, tapşırıq və tövsiyələrini verib, qarşıda duran vəzifələrdən




danışıb. O, qeyd edib ki, 100 illik yubileyini qeyd etməyə hazırlaşan Azərbaycan Polisinin sıralarına daxil olan məzunlar sabitliyi, təhlükəsizliyi, ictimai asayişi və xalqın əmin-amanlığını qorumaq kimi əhəmiyyətli funksiyaların icraçısı olaraq fəaliyyətə başlayırlar.

Cənab Ramil Usubov təntənəli mərasim iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevi əmin edib ki, bu gün sıralarımıza qoşulan gənc zabit korpusu xalqımızın asayişinin, təhlükəsiz həyatının etibarlı qorunması işinə layiqli töhfələr verəcək, qanunla müəyyən edilmiş vəzifələri və qarşıya qoyulmuş tapşırıqları tam yerinə yetirəcəkdir.

Tədbirin sonunda daxili işlər naziri Polis Akademiyasını fərqlənmə ilə bitirmiş məzunlara diplomları və «polis baş leytenantı» xüsusi rütbələrinin paqonlarını təqdim edib.

Əlaçı məzunlardan biri yaş kötüyünə rəmzi xatirə lövhəsini vurub.

Daha sonra döyüş bayrağı dördüncü kurs müdavimlərinə təhvil verilib. Müdavimlər «Azərbaycan Polisi» marşını ifa ediblər.

Sonda şəxsi heyət mətin addımlarla tribunanın qarşısından keçib.

*30 iyun 2018-ci il.*

---

# "ƏN YAXŞI"lar MÜKAFATLANDIRILDI

**Azərbaycan Polisinin 100 illik yubileyi ilə əlaqədar bu il martın 15-dən aprelin 30-dək daxili işlər orqanlarının əməkdaşları arasında peşə ustalığı üzrə müxtəlif nominasiyalarda keçirilmiş müsabiqəyə yekun vurulmuşdur.**

**İyunun 28-də Daxili İşlər Nazirliyində qaliblərin mükafatlandırılmasına həsr olunmuş tədbiri giriş sözü ilə açan respublikanın daxili işlər naziri, general-polkovnik Ramil Usubov əlamətdar yubiley və qazandıqları uğurlara görə qalibləri təbrik etmişdir.**

Nazir daxili işlər orqanlarının ictimai asayişin qorunmasında, cinayətkarlıqla mübarizədə, insan hüquq və azadlıqlarının təmini sahəsindəki görülən işlərin ölkə rəhbərliyi və ictimaiyyət tərəfindən hər zaman yüksək qiymətləndirildiyini bildirmiş, xidməti fəaliyyətin beynəlxalq standartlara uyğun qurulması, maddi-texniki bazasının möhkəmləndirilməsi üçün həyata keçirilən tədbirlərdən danışmışdır. Qeyd olunmuşdur ki, kadr potensialının gücləndirilməsi məqsədilə əməkdaşların peşə hazırlığı daim diqqət mərkəzində saxlanılır, onların əsl peşəkarlar kimi yetişməsi, bilik və bacarıqlarının artırılması üçün bütün zəruri tədbirlər görülür.

Nazir müavini, polis general-leytenantı İsmət Əliyev məlumat vermişdir ki, "ən yaxşı əməliyyat müvəkkili", "ən yaxşı təhqiqatçı", "ən yaxşı müstəntiq", "ən yaxşı polis sahə rəisi", "ən yaxşı sahə inspektoru", "ən yaxşı taqım komandiri", "ən yaxşı polis nəfəri" nominasiyaları üzrə müsabiqədə ümumilikdə 202 polis əməkdaşı iştirak etmişdir. Bununla əlaqədar DİN-də yaradılmış komissiya tərəfindən müsabiqə iştirakçılarının xidməti hazırlıqları test-imtahan üsulu ilə, eləcə də xüsusi fiziki, əlbəyaxa döyüş hazırlıqları və tabel silahından praktiki atıcılıq qabiliyyətləri yoxlanılaraq qiymətləndirilmiş, hər nominasiya üzrə 3 nəfər olmaqla 21 qalib müəyyən edilmişdir. Müsabiqənin şərtlərinə uyğun olaraq, onlardan 5 nəfəri "Əla xidmətlərə görə" döş nişanı, 16-sı isə pul mükafatlarına layiq görülmüşlər.

Tədbirin sonunda nazir Ramil Usubov müsabiqənin qaliblərini bir daha təbrik etmiş, yeni uğurlar arzulamış, onlara tövsiyələrini vermiş, bundan sonra da Azərbaycan Respublikası Prezidentinin daxili işlər orqanlarına göstərdiyi ali diqqət və qayğıya layiq xidmət edəcəklərinə əminliyini bildirmişdir.

# BAYRAM OVQATLI MƏKTUB VAR

**"Polisdə xidmətə başlayan andan Azərbaycan Respublikasının Konstitusiyasını və digər qanunlarını rəhbər tutmağa, insan hüquq və azadlıqlarına hörmətlə yanaşmağa, qanunçuluğa ciddi riayət etməyə, xidməti vəzifələrini namusla və vicdanla yerinə yetirməyə, intizamlı olmağa, ictimai qaydanı və ictimai təhlükəsizliyi mərdliklə qorumağa və lazım gələrsə həyatımı belə əsirgəməməyə and içirəm".**

**Hər bir polis əməkdaşı vəzifəsinin icrasına başlamazdan əvvəl Azərbaycan Respublikasının Dövlət Bayrağı önündə and içərək vəzifə səlahiyyətlərini yerinə yetirməyə başlayır.**

Şübhəsiz ki, hər bir peşənin bir-birindən fərqli xüsusiyyətləri, fərqli də çətinlikləri var. Bu peşələrin içində polis xidməti çətinliyi və məsuliyyəti ilə seçilir.

Mühafizə polisi DİN-in nəzdində çox mühüm strukturlardan biridir. Bir tərəfdən gündəlik çətin xidmətində yüksək məsuliyyətli, dözümlü olmalı, digər tərəfdən təmkinin, nəzakətin, ekstremal şəraitlərdə qərar qəbul etmək qabiliyyətin və bacarığın ilə seçilməlisən, riskli və təhlükəli anlarda sağlam düşüncə və təfəkkürlə hərəkət etməlisən.

Redaksiyamıza hər gün təşəkkür məktubları daxil olur. Yubiley ərəfəsində onların sayı bir az da artıb. Bu məktublardan biri daha çox diqqətimizi çəkdi. **Bakı şəhər sakini Vüsal Məmmədov** polis haqqında elə xoş sözlər yazır ki, məktubu həyəcansız oxuya bilmirsən.

Söhbətin kimdən getdiyi yəqin sizi də maraqlandırdı? Elə isə buyurun... Haqqında xoş sözlər yazılan **polis kiçik serjantı Nihat Musayev Suraxanı Rayon Mühafizə Şöbəsinin əməkdaşıdır,** «ASAN Kommunal» da xidmət aparır.

Hər gün bura yüzlərlə şəhər sakini müraciət edir. Sözsüz ki, polis əməkdaşlarının müraciət edənlərlə rəftarı, ünsiyyəti diqqət mərkəzindədir. Elə Nihatın da ilk öncə bu xüsusiyyəti - yorulmadan, usanmadan müraciət edənlərlə xoş rəftarı diqqət çəkib.

Şahbuzda doğulub. 2017-ci ildən daxili işlər orqanlarında xidmət edir. Polis olmaq uşaqlıq arzusu olub. Deyir ki, xidmətin ilk günləri çətin olsa da bu çətinliklərin öhdəsindən təcrübəli əməkdaşların köməkliyi ilə gələ bilib.

Söhbət zamanı dedi ki, etibarı, inamı doğrultmaq, şərəfli bir vətəndaş-polis ömrü yaşamaq, vətəndaşa təhlükədən daha yaxın olmağın özü xoşbəxtlikdir.

Və Nihatın zabit olmaq arzusunun tezliklə çin olacağına inanırıq, oxucumuzun bayram sevincinə şərik oluruq.

***Ruhiyyə Əliyeva,***
***polis leytenantı***

# RESPUBLİKA BAŞ PROKURORLUĞUNUN, DAXİLİ İŞLƏR NAZİRLİYİNİN VƏ DÖVLƏT TƏHLÜKƏSİZLİYİ XİDMƏTİNİN MƏTBUAT XİDMƏTLƏRİNİN MƏLUMATI

2018-ci il iyul ayının 3-də saat 20:30 radələrində Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev və onun mühafizəçisi Qasım Aşbazov İcra Hakimiyyətinin inzibati binasının qarşısında naməlum şəxsin odlu silahdan açdığı atəş nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri almış və xəstəxanaya yerləşdirilmişlər.

Cinayəti törətmiş 1983-cü ildə Gəncə şəhərində anadan olmuş Yunis Səfərov dərhal həmin ərazidə xidmət aparan polis əməkdaşları tərəfindən tutulub tərksilah edilmişdir.

Fakt üzrə Azərbaycan Respublikasının Baş Prokurorluğunda Cinayət Məcəlləsinin 29, 120.2.3-cü, 120.2.7-ci (zərərçəkmiş şəxsin xidməti vəzifəsini və ya ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar qəsdən adam öldürməyə cəhd) və 228-ci (qanunsuz olaraq odlu silah əldə etmə) maddələri ilə cinayət işi başlanılaraq prokurorluğun, Daxili İşlər Nazirliyinin və Dövlət Təhlükəsizliyi Xidmətinin təcrübəli əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu yaradılmışdır.

Hazırda cinayətdən zərər çəkmiş Elmar Vəliyevin və Qasım Aşbazovun səhhəti qənaətbəxş olmaqla hər ikisi ixtisaslı tibbi yardımla əhatə olunmuşdur.

Cinayət işi üzrə istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

Faktla bağlı görülən tədbirlər ölkə Prezidentinin şəxsi nəzarətindədir.

***3 iyul 2018-ci il.***

# QƏHRƏMANLIQ VƏ QƏHRƏMANLAR MƏKTƏBİ

**Müstəqilliyimizin həmyaşıdı olan Polisimizin 100 illiyi münasibətiylə Binəqədi Rayon Polis İdarəsində keçirilən tədbir ulu öndərin "Heydər parkı"ndakı ucadılmış abidəsinin önünə tər gül dəstələrinin qoyulması ilə başladı.**

**Sonra mərasim idarənin iclas zalında davam etdirildi. Bayram tədbirində şəhid ailələri, polis veteranları, rayon və də digər hüquq-mühafizə orqanlarının rəhbərləri iştirak edirdilər.**




Əvvəlcə ümummilli lider Heydər Əliyevin, torpaqlarımızın müdafiəsində şəhid olmuş vətən oğullarının, eləcə də cinayətkarlıqla mübarizədə həlak olmuş polislərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Tədbiri idarənin rəisi, yubiley ərəfəsində möhtərəm Prezidentimizin sərəncamı ilə "İgidliyə görə" medalı ilə təltif olunmuş polis polkovniki Namiq İsmayılov açaraq əlamətdar gün münasibəti ilə əməkdaşları və veteranları təbrik edib, ölkə və DİN rəhbərliyinin təbrik məktublarını diqqətə çatdırdı. Bildirildi ki, müstəqilliyin ilk illərində ölkədə hakimiyyət uğrunda gedən mübarizənin yaratdığı vətəndaş qarşıdurması, xarici qüvvələrin dəstəklədiyi Ermənistanın Azərbaycana qarşı təcavüzü respublikanı uçuruma sürükləyirdi. Belə bir zamanda - dövlətçilik, müstəqillik təhlükə altında qalanda ulu öndər xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdı, 1993-cü il iyun ayının 15-dən sonra xaosdan-qurtuluşa keçidin əsası qoyuldu, ölkənin ictimai-siyasi həyatında və kriminogen durumda köklü müsbət dəyişikliklər baş verdi. Ulu öndər 1994-cü il aprelin 29-da nazirliyin rəhbər heyətinin iştirakı ilə keçirilən müşavirədə xidməti fəaliyyətdə yol verilmiş nöqsan və çatışmazlıqları açıq şəkildə qeyd edərək, onların tez bir zamanda aradan qaldırılması üçün dəyərli tapşırıq və tövsiyələrini verdi. Onun şəxsi nəzarəti ilə qısa müddətdə bu vəzifələr reallığa çevrildi. Ümummilli lider Heydər Əliyev daxili işlər orqanlarının fəaliyyəti ilə bilavasitə bağlı olan, o cümlədən insan hüquq və azadlıqlarının həyata keçirilməsi mexanizmlərini tənzimləyən qanunlar, fərmanlar və sərəncamlar imzaladı, nazirlik sistemində islahatlar aparıldı, eyni zamanda respublikada tüğyan edən mütəşəkkil cinayətkarlığa, sabitlik üçün təhlükə doğuran zərərli meyillərə qarşı qətiyyətli mübarizə aparıldı, kriminogen durum nəzarətə götürüldü.



Tədbirdə çıxış edən Təşkilati-inspektor qrupunun baş inspektoru, polis polkovnik-leytenantı Qafar Haqverdiyev çıxışında dedi ki, ölkə Prezidenti, cənab İlham Əliyev də daxili işlər orqanlarının xidmətinə layiqli qiymət verir. Dövlət başçısının nəzarəti altında cinayətkarlığa qarşı mübarizənin daha effektli aparılması, açılması, dövlətin maraqlarının etibarlı qorunması, ictmai asayişin təmin edilməsi, şəxsi heyətin nizam-intizamının, onun sosial müdafiəsinin gücləndirilməsi, polis-vətəndaş münasibətlərinin daha yüksək səviyyəyə qaldırılması kimi vəzifələr uğurla həyata keçirilir.

Tədbirin sonunda şəhid ailələrinə, veteranlara qiymətli hədiyyələr, xidmətdə fərqlənən əməkdaşlara «Fəxri fərman»lar təqdim edildi.

***Ç.Şıxverdiyev,***
***polis polkovnik-leytenantı***

# ƏSRƏ BƏRABƏR ŞƏRƏFLİ ÖMÜR

**Azərbaycan Polisinin yaranmasının 100 illiyi münasibətilə Nizami Rayon Polis İdarəsində təşkil olunan bayram tədbiri dövlət himnimizin səsləndirilməsi ilə başladı.**

**Tədbirdə Rayon İcra Hakimiyyətinin başçısı Arif Qasımov, hüquq-mühafizə orqanlarının rəhbərləri, polis veteranları iştirak edirdilər.**

Əlamətdar yubiley tədbirini açan idarənin rəisi, polis polkovniki Ədalət Abbasov qonaqları salamladıqdan sonra ölkə və DİN rəhbərliyinin şəxsi heyətə ünvanladığı təbrik məktublarını oxudu. Sonra geniş məruzə ilə çıxış edən rəis qeyd etdi ki, Azərbaycan Polisi yarandığı gündən peşə borcuna, xalqa ləyaqətlə xidmət edib, asayişin və təhlükəsizliyin mühafizəsi, sabitliyin və əmin-amanlığın qorunması, cinayətkarlığa qarşı mübarizə kimi məsuliyyətli vəzifələri vicdanla yerinə yetirib.

Sovet İttifaqının süqutundan sonra yenidən öz müstəqilliyini bərpa etmək istəyən xalqımız bu yolda çox böyük çətinliklərlə üzləşib. Milli ordunun tam formalaşmadığı dövrdə torpaqlarımızın müdafiəsində Azərbaycan Polisi rəşadət göstərib. Bu ömür əsl qəhrəmanlıq dastanı, örnəkdir.



Sonra Təşkilati inspeksiya qrupunun baş inspektoru, polis mayoru Rəhman İsmayılov bir əsirlik tarixi olan polisimizin keçdiyi şərəfli yol barədə çıxış edib. Qeyd olunub ki, 1993-cü ilin iyununda xalqımızın təkidli tələbi ilə Bakıya gələn ulu öndər Heydər Əliyev ölkəni parçalanmadan qurtardı. Cəmiyyətdə ictimai-siyasi sabitlik, əmin-amanlıq bərpa edildi. Cinayətkarlıqla mübarizədə uğurlu addımlar atıldı. Daxili işlər orqanlarının fəaliyyətində önəmli dəyişikliklər baş verdi. Azərbaycan Polisi gün-gündən təkmilləşdi, peşəkarlıq səviyyəsi artdı, maddi-texniki bazası möhkəmləndi. Ulu öndərin layiqli davamçısı, ölkə başçısı cənab İlham



Əliyevin rəhbərliyi altında bu işlər hazırda inamla davam etdirilir. Yarandığı gündən dövlətə, dövlətçiliyə sədaqətlə xidmət edən Azərbaycan Polisi bu gün də ulu öndərin bizə miras qoyduğu müstəqil dövlətimizin keşiyindədir.

Tədbirdə çıxış edən A.Qasımov Azərbaycan Polisinin cinayətlərin qarşısının alınması, ictimai qaydanın və təhlükəsizliyin qorunması, insan hüquq və azadlıqlarının təmin edilməsi kimi məsul vəzifələri vicdanla yerinə yetirdiyini, hər zaman xalqın və dövlətin mənafeyinə fədakarlıqla xidmət etdiyini diqqətə çatdırdı.

Rayon prokuroru Pərviz İbayevin, Rayon Məhkəməsinin sədri Ələddin Cəfərovun və digərlərinin çıxışlarında polisin qətiyyətli və peşəkar xidmətinə yüksək qiymət verildi.

Tədbirin sonunda Rayon İcra Hakimiyyəti adından xidmətdə fərqlənən əməkdaşlara «Fəxri fərman»lar və qiymətli hədiyyələr təqdim olundu, RPİ-nin rəisi Ədalət Abbasovun ölkə Prezidenti tərəfindən dövlət mükafatı ilə təltif olunması bütün şəxsi heyətə verilən yüksək qiymət kimi dəyərləndirildi.

***Ş.Çingiz***

# DÖVLƏTƏ VƏ XALQA SƏDAQƏTLƏ-100 İL

**Azərbaycan Polisinin yaranmasının 100-cü ildönümü münasibətilə növbəti bayram tədbiri Sabunçu Rayon Mühafizə İdarəsində də qeyd olunub.**

Ulu öndər Heydər Əliyevin, torpaqlarımızın bütövlüyü uğrunda şəhid olmuş oğul və qızlarımızın, həmçinin cinayətkarlıqla mübarizədə həlak olmuş həmkarlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən və dövlət himnimiz səsləndirildikdən sonra tədbiri möhtərəm Prezidentimizin "Azərbaycanda bax, bugünkü vəziyyətin, sabitliyin, inkişafın, gələcəyə inamın təməlində dövlət siyasəti dayanır. Düzgün, müdrik dövlət siyasəti ki, bu siyasətin mərkəzində Azərbaycan vətəndaşıdır. Eyni zamanda, polis işçilərinin fəaliyyəti, onların peşəkarlığı, ictimai asayişin onlar tərəfindən qorunması bu sabitliyi daha da möhkəmləndirir. Mən çox şadam ki, Azərbaycanda polis orqanlarında islahatlar uğurla gedir, peşəkarlıq artır" fikri ilə açan, idarə rəisi, polis polkovniki Əşrəf Allahyarov cümhuriyyət yaşıdı olan polisimizin yaranma tarixinə qısaca nəzər salıb.



Bildirib ki, Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqdan az sonra, Nazirlər Şurasının 1918-ci il 2 iyul tarixli sərəncamı ilə Daxili İşlər Nazirliyi tərkibində müstəqil Azərbaycanın polis orqanları yaradılıb. Azərbaycan polisi yarandığı gündən xalqın və dövlətin mənafeyinə ləyaqətlə xidmət edib, asayişin və təhlükəsizliyin mühafizəsi, sabitliyin və əmin-amanlığın qorunması, cinayətkarlığa qarşı mübarizə kimi məsuliyyətli vəzifələri vicdanla yerinə yetirib.

Qeyd olunub ki, ulu öndərin rəhbərliyi ilə keçirilən 1994-cü ilin 29 aprel müşavirəsindən sonra ölkədə hüquq-mühafizə siyasətinin əsası qoyuldu. Peşəkar, savadlı kadr aparatının formalaşması istiqamətində islahatların davamlı olaraq həyata keçirilməsi sabitliyin qorunmasında və cinayətkarlıqla mübarizədə də dönüş yaratdı. Qısa zaman kəsiyində cəmiyyətin dəstəyini qazanan Azərbaycan Polisi ictimai münasibətlərin qurulmasında, xalqla polis arasında səddin tamamilə aradan qaldırılmasında maraqlı olduğunu öz fəaliyyətində sübut etdi, şəffaflıq prinsiplərini qorudu. Bu isə öz növbəsində polis-cəmiyyət, polis-vətəndaş münasibətinin etibarlı qurulmasına və qorunmasına, qarşıya qoyulan vəzifələrin ictimaiyyətin dəstəyi ilə yerinə yetirilməsinə yardımçı oldu.

İdarənin rəis müavini, polis polkovnik-leytenantı Sahib Cəfərli möhtərəm Prezidentimiz cənab İlham Əliyevin həyata keçirdiyi hərtərəfli islahatların nəticəsi olaraq, Azərbaycan polisinin peşəkarlığını artırmaqla yanaşı, eyni zamanda beynəlxalq standartlara uyğunlaşdırıldığını, 100 yaşlı Azərbaycan polisinin kəşməkeşli olduğu qədər də şərəfli bir yol keçdiyini, tarix boyu Vətənə, xalqa sədaqətlə və ləyaqətlə xidmət etdiyini, dövlətçiliyin əsas sütunlarından birinə çevrildiyini xüsusi vurğulayıb.

Tədbirə dəvət olunmuş veteranlar, şəhid ailələrinin üzvləri çıxışlarında ölkə və DİN rəhbərliyinin onlara olan diqqət və qayğısından da söz açıblar.

Daha sonra xidmətdə fərqlənən əməkdaşlara mükafatlar təqdim olunub.

Sonda tədbir iştirakçıları Azərbaycan Polisinin tarixindən bəhs edən sənədli filmə baxıblar.

***Hafiz Təmirov,***
***polis mayoru***

# AZƏRBAYCAN POLİSİNİN 100 İLLİYİNƏ HƏSR OLUNMUŞ YARIŞ KEÇİRİLİB



**İyunun 27-də DİN İdman Cəmiyyətində Azərbaycan Polisinin 100 illiyinə həsr olunmuş güc strukturları arasında cüdo üzrə DİN-in açıq çempionatı keçirilib.**

Əvvəlcə Azərbaycanın dövlət himni səsləndirilib. Sonra ulu öndərimizin və onun siyasi kursunu davam və inkişaf etdirən möhtərəm dövlət başçımızın ölkənin daxili işlər orqanlarına göstərdiyi diqqət və qayğıdan bəhs edən video-çarx nümayiş olunub.

Yarış iştirakçılarını salamlayan gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov Azərbaycan Polisinin 100 illiyi münasibəti ilə polis əməkdaşlarını təbrik edib, onlara bu çətin və şərəfli xidmətdə uğurlar arzulayıb.

Yarışın əhəmiyyətini yüksək qiymətləndirən İ.İsmayılov Azərbaycanın dünyada idman ölkəsi kimi tanındığını diqqətə çatdırıb. İlk Avropa və IV İslam Həmrəyliyi Oyunlarının, eləcə də ayrı-ayrı idman növləri üzrə dünya, Avropa çempionatlarının, Qran-Pri yarışlarının, mötəbər turnirlərin ölkəmizdə keçirilməsinin bunun bariz nümunəsi olduğunu deyərək, ölkə idmançıları arasında daxili işlər orqanlarının əməkdaşlarının parlaq qələbələrinin soydaşlarımıza sevinc və qürur bəxş etdiyini diqqətə çatdırıb.

Milli Olimpiya Komitəsinin vitse-prezidenti, dünya və Avropa çempionu Xəzər İsayev Azərbaycan Polisinin 100 illiyi münasibəti ilə keçirilən bu yarışda ölkəmizin digər hüquq-mühafizə və güc strukturlarının komandalarının iştirakını yüksək dəyərləndirərək idmançıların yarış təcrübələrinin artmasına əvəzsiz töhfə olduğunu bildirib.





Daha sonra DİN-in Şəxsi Heyətlə İş İdarəsinin rəisi, polis polkovniki Rahib Qarayev Azərbaycan Polisinin keçdiyi tarixi yola qısa nəzər salaraq tarixin bütün dönəmlərində daxili işlər orqanları əməkdaşlarının daim xalqa sədaqətlə xidmət etməsindən, dövlətçiliyimizin keşiyində ayıq-sayıq dayanmasından danışaraq bu fədakar xidmətin ölkə rəhbərliyi və ictimaiyyət tərəfindən layiqli qiymətini aldığını bildirib.

Yarışın açılış mərasimində incəsənət ustalarının iştirakı ilə geniş konsert proqramı əsl bayram ovqatı yaradıb.

Komandalar tribuna önündən keçəndən sonra yarışlara start verilib.

Müdafiə, Ədliyyə, Fövqəladə Hallar və Daxili İşlər nazirliklərinin, Dövlət Sərhəd Xidməti və Dövlət Gömrük Komitəsini təmsil edən ümumilikdə 6 komandadan 100-dən çox idmançı qələbə uğrunda mübarizə aparıblar.

Gərgin keçən yarışlarda qaliblər müəyyənləşib. Komanda birinciliyində ilk üçlükdə Daxili İşlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi və Müdafiə Nazirliyinin əməkdaşları qərarlaşıblar.

# AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ BAŞ PASPORT, QEYDİYYAT VƏ MİQRASİYA İDARƏSİNƏ BİLAVASİTƏ TABE OLAN ŞƏKİ VƏ İMİŞLİ "ASAN XİDMƏT" MƏRKƏZLƏRİ ÜZRƏ REGİONAL QRUPLARDA VAKANT OLAN 36 (OTUZ ALTI) KİÇİK RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

**Kiçik rəis heyəti vəzifələrinə:** Respublikanın Şəki "ASAN xidmət" mərkəzində (18), İmişli "ASAN xidmət" mərkəzində (18), ümumilikdə 36 vakant yer tutmaq məqsədi ilə keçirilən müsabiqədə aşağıdakı tələblərə cavab verən Azərbaycan Respublikasının qadın vətəndaşları iştirak edə bilərlər.

"Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən, yaşı 20-dən 25-dək, boyu 160 santimetrdən yuxarı olan, özü və yaxın qohumları məhkum olunmamış, Azərbaycan Respublikasının dövlət orta, xüsusi-orta və ali təhsil müəssisələrini bitirmiş, Şəki, Oğuz, Qax, İmişli, Saatlı və Beyləqan rayonlarında yaşayış yeri üzrə daimi qeydiyyatda olan Azərbaycan Respublikasının qadın vətəndaşları iştrak edə bilərlər.

Namizədlərin sağlamlıq vəziyyəti, biliyi və fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş normativlər üzrə yoxlanılaraq, kompyuter avadanlıqları ilə işləmək qabiliyyətinə malik, ali təhsili olan və xarici dillərdən birini sərbəst bilən şəxslərə üstünlük veriləcək.

Müsabiqədə iştrak etmək istəyən şəxslər 2018-ci ilin iyun ayının 27-dən iyul ayının 27-dək iş günləri saat 10:00-dan 17:00-dək Bakı şəhəri, R.Behbudov küçəsi, 130 ünvanında yerləşən Daxili İşlər Nazirliyinin Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinə müraciət edərək aşağıdakı sənədləri təqdim etməlidirlər:

***-şəxsiyyət vəsiqəsi;***

***-təhsil haqqında sənəd (orta təhsil haqqında attestat və ya diplom);***

***-əmək kitabçası (olanlar üçün).***

Müsabiqə qalibləri müvafiq xüsusi rütbə verilməklə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin kadrları tərkibinə daxil ediləcək və onların qanunvericilikdə müəyyən olunmuş qaydada daxili işlər orqanları əməkdaşlarına şamil olunan imtiyazlardan istifadə hüququ olacaq.

**Əlavə məlumat üçün əlaqə telefonu: (012) 590-64-41 şəhər**

**(012) 590-64-31 (312) daxili**

# ƏSRİN YUBİLEYİNƏ ƏSRİN QƏLƏBƏLƏRİ İLƏ

**Azərbaycan Polisi özünün 100 illik yubileyini alnıaçıq, üzüağ qarşıladı. Ölkədə sabitliyin, əmin-amanlığın qorunmasında, cinayətkarlıqla mübarizədə əldə edilən yüksək nəticələrlə yanaşı, daxili işlər orqanlarının ayrı-ayrı qurumlarının əldə etdiyi nailiyyətlər də soydaşlarımızın, ölkə ictimaiyyətinin hədsiz sevincinə səbəb olur.**

DİN İdman Cəmiyyəti daxili işlər orqanlarının tərkibində yaranmış ilk qurumlardan biri olmaqla ölkəmizin ən qocaman idman təşkilatlarından biri kimi dövlətimizin idman həyatında önəmli rol oynayır, məşqçilərin, yüksək səviyyəli idmançıların yetişməsində parlaq qələbələr əldə edir. Elə təkcə onu xatırlatmaq kifayətdir ki, 1952-ci ildə SSRİ-nin yığma komandasının ilk dəfə qatıldığı Helsinkidə keçirilən Olimpiya oyunlarında təmsilçimiz Rəşid Məmmədbəyov yunan-Roma güləşi üzrə keçirilən yarışlarda gümüş medal qazanıb. Musa Babayev, İbrahimpaşa və Muxtar Dadaşov qardaşları, sonrakı illərdə Aydın İbrahimov, Rafiq Hacıyev Olimpiya, dünya və Avropa çempionatlarında yüksək nəticələr əldə ediblər. Onların davamçıları da müxtəlif idman növləri üzrə mötəbər yarışlarda ölkəmizi layiqincə təmsil ediblər.

DİN İdman Cəmiyyətində Olimpiya və qeyri-Olimpiya növləri inkişaf edib. Polis əməkdaşlarının fiziki hazırlığı üçün müvafiq tədbirlər görülür. Azərbaycan müstəqillik qazandıqdan sonra qatıldığı ilk 1996-cı ildə Atlanta Olimpiadasında bu qurumun yetirməsi, sərbəst güləşçi Namiq Abdullayev gümüş medal qazanıb. Sonrakı Sidney Olimpiya Oyununda iki təmsilçimiz - hazırda DİN İdman Cəmiyyətinin sədri, Zemfira Meftaxetdinova və Daxili Qoşunların idman komandasının rəisi Namiq Abdullayev qızıl medal qazanıblar.

Təmsilçilərimiz müxtəlif idman növləri üzrə dünya və Avropa çempionatlarında fiziki və texniki hazırlıqlarına görə ən təhlükəli rəqiblərdən hesab olunurlar. Bu gün daxili işlər orqanlarında xidmət edən Ruslan Lunyov, Nizami Məmmədov, Tural Əliyev, Fərid Mayılov, Tural Bayramov, Ədilə Qurbanova və digərləri qatıldıqları yarışlarda yüksək nəticələr əldə ediblər. Onların əməyi layiqli qiymətini alıb.

Ölkəmizdə keçirilən ilk Avropa və IV İslam həmrəyliyi Oyunlarında son illərin ən böyük idman bayramları kimi keçirilib. Azərbaycanın öz standartlarını yaratdığı, miqyasına görə Yay Olimpiya Oyunlarından geri qalmayan bu yarışlarda daxili işlər orqanlarının idmançı əməkdaşları-İdman Cəmiyyətinin yetirmələri parlaq, yaddaqalan qələbələr əldə ediblər.

Müstəqillik illərində İdman Cəmiyyəti ölkənin idman həyatında mühüm yer tutur. Ölkəmizdə idman, gənclərə göstərilən xüsusi diqqət və qayğının, bu siyasətin DİN-də də yüksək səviyyədə həyata keçməsinin nəticəsi olaraq idmançı əməkdaşların qələbələri daha da artır.

***Z.Hüseynov,***
***polis serjantı***

**İyunun 29-da Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan Respublikası Silahlı Qüvvələrin yaranmasının 100 illiyinə həsr olunmuş üzgüçülük estafeti keçirilib.**

# DƏNİZ CƏSURLARI SEVİR



İdmançılar Böyük Zirə adasından Dənizkənarı Milli Park ərazisindəki Saat Qülləsinədək 9800 metr məsafəni qət ediblər.

Bu yarışda Müdafiə, Fövqəladə Hallar və Daxili İşlər nazirliklərini, Dövlət Təhlükəsizliyi və Dövlət Sərhəd xidmətlərini, Dövlət Gömrük Komitəsini təmsil edən yüzdən çox əməkdaş qələbə uğrunda mübarizə aparıblar.

DİN İdman Cəmiyyətinin İdmanın təşkili bölməsinin rəisi, polis polkovnik-leytenantı Mülayim Xıdırov bildirib ki, müxtəlif ərazi polis orqanlarında xidmət edən əməkdaşların komanda yarışlarında və belə uzun məsafəyə üzməkdə təcrübəsi olmasa da onların yüksək fiziki hazırlığı və mübarizliyi "son sözü" demiş olub. Az vaxtda birgə məşqlər nəticəsində Daxili İşlər Nazirliyinin təmsilçiləri qələbə əzmi ilə qatıldıqları bu estafeti rəqib komandaların idmançılarından daha tez qət ediblər. Finişə Su İdman Sarayının idmançıları ikinci, Dövlət Sərhəd Xidmətinin əməkdaşları isə üçüncü çatıblar.

İdman Cəmiyyətinin komandasını bu yarışa polis mayoru Zaur Məcidov hazırlayıb.

# İyunun 27-dən iyulun 3-dək olan müddət ərzində...

- Respublikanın daxili işlər orqanları tərəfindən 654 cinayət qeydə alınmış, onların 123-ü «isti izlər»lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 42 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 147 nəfər, o cümlədən mülki-hüquqi öhdəliklərin icrasından yayındığına görə 5 nəfər, borclu şəxs qismində axtarışda olan 67 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 30 yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 26 nəfər ölmüş, 44 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 55 fakt müəyyən edilmişdir.
- Cinayət törətməkdə şübhəli bilinən 138 nəfər saxlanılmışdır.

Baş Dövlət Yol Polisi İdarəsinin rəisi Ramiz Zeynalov və şəxsi heyəti Nizami RMİ-nin rəisi Elşən Camalova atası

**YAVƏR CAMALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinin rəisi Elşən Kazımov və şəxsi heyəti Elşən Camalova atası

**YAVƏR CAMALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN İdman Cəmiyyətinin sədri Zemfira Meftaxetdinova və şəxsi heyəti Baş Təşkilat-İnspeksiya İdarəsinin şöbə rəisi Müşfiq Axundova atası

**SALMAN müəllimin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Tibb İdarəsinin rəisi Mahmud Yusifov və şəxsi heyəti Elşən Camalova atası

**YAVƏR CAMALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN A. N. Heydərov adına Respublika Hospitalının rəisi İsbi Babaxanov və şəxsi heyəti Elşən Camalova atası

**YAVƏR CAMALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN-in 1 nömrəli Poliklinikasının rəisi Səadət Həsənova və şəxsi heyəti Elşən Camalova atası

**YAVƏR CAMALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Gəncə ŞBPİ-nin rəisi Faiq Şabanov və şəxsi heyəti Elşən Camalova atası

**YAVƏR CAMALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN-in Avtomobil Təsərrüfatının rəisi Elçin Alıyev və şəxsi heyəti Müşfiq Axundova atası

**SALMAN müəllimin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Xətai RPİ-nin rəisi Muradəli Babayev və şəxsi heyəti Elşən Camalova atası

**YAVƏR CAMALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nizami RPİ-nin rəisi Ədalət Abbasov və şəxsi heyəti Elşən Camalova atası

**YAVƏR CAMALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Xəzər RPİ-nin rəisi Azər Muradov və şəxsi heyəti Elşən Camalova atası

**YAVƏR CAMALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nərimanov RPİ-nin rəisi Nəriman İmanov və şəxsi heyəti Elşən Camalova atası

**YAVƏR CAMALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Xaçmaz RPŞ-nin rəisi Nofəl Məhərrəmov və şəxsi heyəti Sabirabad RPŞ-nin rəisi Namiq Camalova əzizi

**YAVƏR CAMALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Masallı RPŞ-nin rəisi Habil Əmiraslanov və şəxsi heyəti Namiq Camalova əzizi

**YAVƏR CAMALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şəki ŞRPŞ-nin rəisi Əbülfət Rzayev və şəxsi heyəti Namiq Camalova əzizi

**YAVƏR CAMALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Göyçay RPŞ-nin rəisi Sənan Əsədov və şəxsi heyəti Namiq Camalova əzizi

**YAVƏR CAMALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Balakən RPŞ-nin rəisi Elnur Həsənov və şəxsi heyəti Namiq Camalova əzizi

**YAVƏR CAMALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Zaqatala RPŞ-nin rəisi Adil Ələkbərov və şəxsi heyəti Namiq Camalova əzizi

**YAVƏR CAMALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bərdə RPŞ-nin rəisi İlqar Məmmədov və şəxsi heyəti Namiq Camalova əzizi

**YAVƏR CAMALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Neftçala RPŞ-nin rəisi Vüsal Şəbəndiyev və şəxsi heyəti Namiq Camalova əzizi

**YAVƏR CAMALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağcabədi RPŞ-nin rəisi Məhəmməd İbrahimov və şəxsi heyəti Namiq Camalova əzizi

**YAVƏR CAMALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Laçın RPŞ-nin rəisi Adil Əsədov və şəxsi heyəti Müşfiq Axundova atası

**SALMAN müəllimin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Hacıqabul RPŞ-nin rəisi Məmməd Hüseynov və şəxsi heyəti Namiq Camalova əzizi

**YAVƏR CAMALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Zəngilan RPŞ-nin rəisi Ənvər Həsənov və şəxsi heyəti Namiq Camalova əzizi

**YAVƏR CAMALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ

qəzetinin Kompyuter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.

Redaktor
CAVİD XASPOLADOV

Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10082

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30

Çapa imzalanmışdır 17:30